


# Çağdaş tariximizin şanlı səhifəsi

## 80 yaşlı 21 Azər və Pişəvəri müəmması



Turan Uğur
AYB üzvü

*Azərbaycan Demokratik Firqəsinin sədri, Azərbaycan Milli Hökumətinin rəhbəri, jurnalist, publisist, ictimai xadim Seyid Cəfər Pişəvərinin ruhuna sonsuz sayğılarla!*
*(21 Azər hərəkatının 80 illiyinə - babam İsmayıl Paydar-Dəryaninin və fədailərimizin uca ruhlarına ithaf edirəm)*

***Atamdan eşitmişdim, atam da babam İsmayıldan eşitdiklərini söyləyirdi.Deyirdi ki, Milli hökumət süqut eləyəndə dara çəkilənlər, təndirə atılanlar, ayağına nal vurulanlar, sürgün edilənlərlə yanaşı bu taya qaçanların da sayı on minlərlə idi.1946-cı ilin soyuqlu, sazaqlı 12 dekabr gecəsində faytonda bir qadın və qayınanası Təbrizi təcili tərk etməli olurlar.Əvvəlcə Təbrizdə məscidlərin birinə sığınan bu fədai ailəsi çox keçmədən anlayırlar ki, Məhəmməd Rza şahın cəlladları Allah, peyğəmbər tanımır, əgər filfövr qaçmasalar hamısını qırıb-çatacaqlar.Ona görə də gecəninənginliyində Təbrizi tərk etməyə məcbur olurlar. Faytonçu yol boyu 5 dəqiqədən bir faytondan düşər sonra yenidən yolçuluğuna davam edərmiş.***

Həmin əsnada bu qadınların ürəyi armud saplağı kimi üzülərmiş "yəqin bizi də təhvil verirlər Şah adamlarına" deyə. Bu hal bir neçə dəfə təkrar olunanda qadınlardan biri dözmür, yerindən dillənir:

"Daha ürəyimiz üzüldü, ay oğul, sən beş dəqiqədən bir niyə düşürsən?

-Ay xanım, yer doludur ölənlərin nəşi ilə, at hürkür, yolu keçə bilmir, buzlu meyitlər yerə yapışıb, düşüb onları kənara çəkirəm ki, rahat gedə bilək"

Sonralar buna bənzər epizodları başqa fədailərdən də eşidəcəkdim. Bu məşum səhnə uşaqlığımın cır, mənhus səsi ilə bu saat qulaqlarımın pərdəsini dəlir, ürəyimi ağrıdır, qəlbimi sızladır.Bu kədərli səhnənin daha neçəsini sadalamaq da olar. Ürəyimdə günaşırı qövr eyləyən belə yaraların ən acısı, ən ağrılısı, ən naçarı, eyni zamanda ən şərəflisi Seyid Cəfər Pişəvərinin adı və andı ilə bağlıdır.Pişəvəri müəmması – "səhv" ləri , "düz" ləri ilə bu müəmmanı çözmək hər bir həmşərinin, hər bir fədai ailəsinin gündəlik rutinləri sırasında öncül yerlərdən birini tutursa, deməli, 21 Azərin böyük övladının həyatına boylanamağın yeridir.O and ki, əllərini göyə açmaq yox, qollarını güneyə-quzeyə uzatmaqla, bütün yurdumuzun ellərini, obalarını qucmaqla gerçəkləşər, həmin andın sətirlərinə qoşulub ərşə bülənd olmağa, göyə pərvazlanmağa dəyər!

Lap çocuqluqdan evimizdə Pişəvərinin ismi ən çox duyduğum adlardandır - desəm, əsla yanılmaram.Amma hələ körpə ikən eşitdiyim bu adın səslənişində fərəhlə yanaşı, kədər də sezilirdi.Atamın dodaqlarından çıxan Pişəvəri sözünün hər səslənişi bir elegiya - hüznlü şərqi kimi oxunardı; avazı, ritmi, havası yerində, qüssəsi, kədəri də maşallah "n" qədər.Yeniyetmə çağlarda isə ən çox Pişəvərinin faciəvi ölümü - onun Yevlax-Gəncə yolunun 14 km - liyində qəzaya salınması haqqında, xəstəxanada öldürülməsi barəsində və.s kimi gerçək –şayiə burulğanının qatar-qatar axını ilə toqquşardım. Yeniyetmə çağlarımdan beynimdə "qaynar qazan" - a dönmüş bu fikir eşalonunun bugün də tam aydınlığa çıxmaması Pişəvəri faciəsinin, Pişəvəri müəmmasının əsl mahiyyətindən doğur.

"İnsan gedər, əsər qalar" - deyən ulularımızın sən demə, bizə bu sayaq mübhəm "ərməğan" ları da varmış.Məhz buna görə Pişəvəri tilsiminin üzərindən qalxmayan bu ölüm pərdəsinin rəngi həmişə siyah görünür.Gözlərimiz qapqara görünən bu pərdənin aydınlanması naminə görmə qabiliyyətindən, öz ziyasından pay verməyincə Seyid Cəfərin həyat finalı bizə yeni faciələrin başlanğıcı olacaq.Təbriz türk ruhunu, türk havasını doya-doya canına hopdura, könlünə sindirə bilməyəcəksə, istiqlal havasına oynamayacaqsa, Pişəvərinin həyat faciəsi ömrümüzdə hələ əsrlər boyu davam etməyə niyyətli olacaq.Görünən budur, bəs doğulan kimdir?

-Seyid Cəfər Mir Cavad oğlu Cavadzadə.Hicri 1313-cü ilin, səfər ayının 13-də.Ayların ən ağırında, günlərin ən nəhsində doğulan Cəfər var.Ona görə ən ağır yazıram ki, Məhərrəm ayında yasaqlarımızdan sonrakı ən sərt qadağalarımız məhz Səfər ayı ilə bağlı olardı.Sevinməzdik, oynamazdıq, deyib-gülməzdik – imamlarımızın yası çıxmayınca toy çaldırmazdıq.Anamın həmin günlərdə televizorumuzun üstünə qara örtük salmasını da yaxşı xatırlayıram.Bu sözləri yazarkən bizə gülənlər məni maraqlandırmır, bəlkə də maraqlandırardı, əgər bizə gülənlərə Allah gülməsəydi.Həmin insanların günü-güzəranı göy əskiyə bükülməsəydi, balaqları qısalarkən, Allahın ətəyi qalıb, başqa məzhəbçilərin ətəyindən yapışmasaydılar, mənə maraqlı olardı, əgər məzhəbçiliklər boyunlarına əngəl-kələf olmasaydı, "ad günü keçirməyin günahdır", "mövlud günü eləməyin suçdur", "Novruz bayramını qeyd etməyin, haramdır!" kimi əbləh fikirlərin ağuşunda uyumasaydılar və bu sayaq sarsaq düşüncələrlə ürəyimizə xal salmasaydılar...



***Könlümüzə düşən "xal" dan Xalxala keçirəm, Seyid Cəfərin doğulduğu mahala.Ordan da yol alıram Zeyvə kəndinə.Zeyvə kəndindən də qıvrılıram "Seyidlər Zeyvəsinə". Seyid Cəfər doğulanda həmin kənddə vur-tut 500 ailə olardı.Sonra bu kəndin evi bir qədər də artdı, böyüdü kənd, kəndin böyüməsi fonunda Cəfər də böyüyürdü.Sonra atası ailəsini götürüb quzeyə pənah gətirəcəkdi.Səbəbləri çoxdur – dolanışığın pisliyi, qardaşları ilə incikliyi və.s.Cavadzadələr 20-ci əsrin əvvəllərində, 1905-ci ildə bu taya köçürlər, 12-13 yaşlı Cəfər üçün bu göydəndüşmə olurdu.Amma ideyalar göydən düşmür, zərrəzərrə birikir, yığılır, toplanır və tədricən millət məfkurəsinə çevrilirdi.Elə Mir Cavadın özü də Məşrutə iştirakçısı kimi çox sınaqlardan çıxmışdı, öyüd-nəsihətləri yeniyetmə Cəfərə təsirsiz ötüşməmişdi.***

1905 – ci ilin Novruz bayramına az qalırdı.Gecə qalanmış tonqallar, çatılmış ocaqlar, qırmızıya boyanmış yumurtalar, saçı yolunmuş səmənilər, darvazaların ağzında qapını döyüb çuval atan, qaçıb-gizlənən çocuqların surəti gözlərdə var-gəl edirdi bayram axşamında.Nəisə xatırlatmaq üçün yarışa girmişlər, marafona qoşulmuşlar sanki.Seyid Cəfərin uşaqlığının cır səsiylə çağıran, bəzən də uğultulu bir sədayla bağıran bu xatirələr Novruzun bir addımlığında Cavadzadələrə məlhəm idi. Yeni ildə yeni amallar uğruna bu taya gələn Seyid Cəfərin ailəsinə tale öz qollarını geniş açmışdı.Bu qollar sevmək üçün idi, ya onları boğmaq üçün – bunu gələcək həyat göstərəckdi.

Bülbülə kəndində məskunlaşırlar, təhsil alır, "Açıq söz" qəzetində çıxış edir, öncələr Məhəmməd Əmin Rəsulzadəyə, sonra isə sol kəsimə - Nəriman Nərimanova meyil edir.Mətbuatda çıxış edir, güneydəki insanalrın səfalətdən, aclıqdan xilas olması üçün yeni yollar arayır.

20-ci illərin ortalarından sonra Bakıda qalmaq mümkün olmur.Səbəbləri çox olduğundan bu nüansın üzərindən adlayıb keçirəm.Bir cümlə ilə deyim ki, fəhlələrə, yoxsullara, kəndlilərə verilən vədlər quldur sovet irticaçılarının boğazdan yuxarı sözləri idi.Ağıllı insanlar, gələcəyi görən müdriklər 1920- ci illərin ortalarından sonra bunu dərk etdilər, hərçənd şimalda Şura hökumətinin qurulmasında səfil həmşərilərin, ac güneylilərin əməyi az olmayıb.

1930-cu ildə Pişəvəri 10 illik məhbəs zülmünü görür.Ancaq bu zülm onun müəyyən qədər sağ qalmasında rol oynadı.Əgər o azadlıqda olsaydı, çoxdan məhv edilmişdi.Bu epizodu Nazim Hikmətə də aid eləmək olar.Nazim Bursa həbsxanasında keçirdiyi 12 ildə əslində repressiyadan xilas olmuşdu, digər solçu şairlər kimi məhv olunmaqdan yayınmışdı.

Dekabrın 27 – isi.Yerlər buz bağlayıb, topa-topa yağan qar ağ çalmalı bulud kimi Tehranın başını örtmüşdü.Seyid Cəfər xalası oğlu Məhəmmədlə nahar edirlər, etdikləri naharın zəhrimara dönüşməsinə saatlar qalırdı.Məhəmməd ondan ayrılanda Seyid yeyin-yeyin addımlarla issiz, xali küçədən keçəndə bir nəfər qarşısını kəsir.Əlində əsa olan bu bədheybət görünüşlü, yöndəmsiz geyimli şəxs Pişəvəridə ilk andan qıcıq yaratdı.

-Ağa, sizin adınız?

- Nə üçün soruşursuz?

- Şəxsən bəndənin sizə sözü yoxdur, məni göndərmişlər ki, İttilat İdarəsinə təşrif buyurasız. Zənnimcə, sizdən kiçik bir söz soruşacaqlar.

Pişəvəri anladı ki, vəziyyət yaxşı deyil.Bu idarəyə girən adamlar ordan asan çıxa bilmirlər.Birinci demokrat sivişib aradan çıxmaq istədi:

-Belə olduqda mən evə xəbər verim.

-Buna ehtiyac yoxdu, tezliklə qayıdacaqsızınız.

Seyid Cəfərin ağlından qaçmaq fikri keçsə də bu fikirdən tezcə yayınır, zira o şəxs tək deyildi.Ətrafda onu müşayiət edən, yaxud edənlər mütləqdir ki, vardı.

O dövrün ən dəhşətli zindanı kimi tanınan "Qəsri-Qacar"- da 226 nömrəli siyasi məhbusun işini Fəruzeş soyadlı müstəntiq aparırdı.Sorğu-sual əsasən gecə saatlarında aparılır ki, Seyidin iradəsini asanca qırsınlar, istədikləri cavabları alsınlar.Haçansa oxumuşdum ki, bu zindanda onu gecə vaxtlarında yatmasınlar deyə çənəsindən yumruqla vurarmışlar ki, əsəbləri tamamilə məhv olsun. Ona görə də Pişəvəridə məhbusluqdan sonra biqəfil çiynini çəkmək vərdişi yaranır. Sirdaşları deyirdilər ki, söhbət əsnasında Seyid anidən diksinər, qəfil dik atılardı.Bunu onun silahdaşlarının xatirələrindən apaydın sezmək olar.Zavallı Seyid Cəfər – bu dünyada o dünyanın cəhənnəmini yaşayan insan...

***-Adınız və soyadınız?***

***-Mir Cavad oğlu Mir Cəfər Pişəvəri.Otuz beş yaşım var.Azərbaycanın Xalxal mahalındanam.İran və Şurəvi mədrəsəsində müəllimlik etmişəm.***

***-Neçə müddətdir Tehrandasız?***

***-Üç il yarım, dörd il.***

***-Nə zamandan Şurəvi mədrəsəsində müəllimlik edirsiz?***

***-Bir il dörd aydır.***

***-Bundan əvvəl nə iş görərdin?***

***-Ticarətlə məşğuldum, kitab mağazam vardı...***

**(ardı gələn sayımızda)**